# USTAD AŞIQ ŞƏMŞİR ANILDI

**Azərbaycanın çoxəsrlik şifahi sənət ənənələrini layiqincə davam etdirərək meydana gətirdiyi rəngarəng poetik-bədii nümunələrlə milli folklor xəzinəsini daha da zənginləşdirmiş görkəmli söz ustadı, Azərbaycan aşıq yaradıcılığının böyük nümayəndəsi, Əməkdar incəsənət xadimi Aşıq Şəmşirin anadan olmasının 128 illi tamam olur. Bu münasibətlə ölkəmizdə hökm sürən COVİD-19 pandemiyasına qarşı Nazirlər Kabinetinin müvafiq qərarlarına uğun olaraq, sosial izolyasiya qaydalarına əməl etməklə Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev və aidiyyəti qurumların rəhbərləri Aşıq Şəmşirin Göygöl rayonunda yerləşən büstü önünə tər-gül dəstələri düzərək, hörmət və ehtiramlarını bildirdilər. Anım tədbirində çıxış edənlər saz-söz ustadı Aşıq Şəmşirin Azərbaycan ədəbiyyatına bəxş etdiyi zəngin mədəni irsdən söz açıblar.**




Ümummilli lider Heydər Əliyev xalqımızın ən qədim mənəvi dəyərlərindən olan aşıq sənətinə, XX əsr Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndələrindən biri Aşıq Şəmşirin yaradıcılığına xüsusi diqqət və qayğı göstərmiş, saz-söz sənətində göstərdiyi xidmətlərə görə Aşıq Şəmşir "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 1973-cü ildə ulu öndər Heydər Əliyevin imzaladığı qərara əsasən, Aşıq Şəmşirin 80 illik yubileyi geniş qeyd olunmuş, o, "Şərəf Nişanı" ordeni ilə təltif edilmişdir. 1980-ci ildə isə Kəlbəcərin Mədəniyyət evinə Aşıq Şəmşirin adı verilmişdir. Azərbaycanın müstəqillik illərində Heydər Əliyevin 2003-cü ildə imzaladığı sərəncama əsasən, Aşıq Şəmşirin 110 illik yubileyi dövlət səviyyəsində qeyd edilib, Göygöl rayonundakı 7 illik uşaq musiqi məktəbinə Aşıq Şəmşirin adı verilmiş və büstü ucaldılmışdır.

Aşıq sənətinə bu gün də dövlət səviyyəsində böyük diqqət yetirilir. Heydər Əliyevin mədəniyyət siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsləri və dəstəyi ilə 2009-cu ildə Azərbaycanın aşıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir. 2010-cu ildən "Aşıq Şəmşir" mədəniyyət ocağı fəaliyyətə başladı. Yarandığı gündən etibarən İctimai Birlik müxtəlif səpkili xeyriyyə tədbirləri, seminarlar, debatlar, bilik olimpiadaları və konfranslar təşkil edir. Həmçinin gənc və istedadlı yazarların kitablarının nəşr edilməsinə yardımçı olur. Qənbər Şəmşiroğlunun diqqəti sayəsində mədəniyyət ocağında, milli mədəniyyətimizin və mədəni incilərimizin, adət-ənənələrimizin, aşıq sənəti, folklor və digər incəsənət nümunələrinin toplanması, araşdırılması, onların qorunub yaşadılması, təbliğ edilməsi və gələcək nəsillərə çatdırılması sahəsində böyük işlər görülüb. 2015-ci ildən "Aşıq Şəmşir" Mədəniyyət ocağı İctimai Birliyi isə UNESCO-da məsləhətçi statusu qazanıb. Mərkəzin nəzdində yaradılmış Aşıq Şəmşirin xatirə muzeyində Miskin Abdaldan başlayıb Dədə Şəmşirin nəvələri ilə davam edən böyük aşıq nəsli ilə bilavasitə bağlı materiallar təqdim olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Aşıq Şəmşirin mədəni irsinə yüksək qiymət vermiş və Aşıq Şəmşirin 125 illiyinin qeyd edilməsi haqqında 2 aprel 2018-ci il tarixli Sərəncam imzalamışdır.

Müzəffər Ali Baş Komandan, qalib Sərkərdə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsində ölkəmiz inkişaf etmiş, ordumuz güclənmiş, xalq-iqtidar birliyi monolit qüvvəyə çevrilmişdir. Məhz bu birlikdən yaranan "Dəmir Yumruğun" hesabına 30 ilə yaxın düşmən tapdağında olan ərazilərimiz azad olunmuş və ərazi bütövlüyümüz bərpa edilmişdir. Saz-söz sənətinin dahi ustadı, Əməkdar incəsənət xadimi Aşıq Şəmşirin yurdu saz-söz beşiyi Kəlbəcər rayonu indi azaddır. Tam əminliklə demək olar ki, Aşıq Şəmşir məktəbi Kəlbəcərdə yeni-yeni saz-söz sərrafları yetişdirəcək və bizlər Dədə Şəmşirin növbəti yubileyini təbiətin möcüzəsi, unikal diyar olan doğma Kəlbəcərimizdə qeyd edəcəyik.

**Zabit XƏLİLOV,**
**"Respublika".**